**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ŞƏHLA İBRAHİM qızı ƏLİZADƏ**

# TİKİNTİ MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYA RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01– “Sahə iqtisadiyyatı”

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

*Elmi rəhbər:* iqtisad elmləri doktoru, professor **H.A.Xəlilov**

*Rəsmi opponentlər:* iqtisad elmləri doktoru, professor **İ.Ə.Mehdiyev**
iqtisad üzrə fəlsəfə doktoru **R.M.Əliyev**

*Aparıcı təşkilat:* Azərbaycan Texniki Universitetinin "Sənayenin iqtisadiyyatı və menecment" kafedrası

Müdafiə 12 mart 2018-ci il saat $14^{00}$-da Azərbaycan Memarlıq və İnşaat Universitetində fəaliyyət göstərən 5312.01-"Sahə iqtisadiyyatı" ixtisası üzrə birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1073/1, Bakı şəh., A.Sultanova küç. 11 Azərbaycan Memarlıq və İnşaat Universiteti, I tədris binası, otaq

Dissertasiya işi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "__________" 2018-ci ildə göndərilmişdir.

**Azərbaycan Memarlıq və İnşaat Universitetində yaradılmış 5312.01-"Sahə iqtisadiyyatı" ixtisası üzrə birdəfəlik dissertasiya şurasının elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru dosent A.M.Ağayev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndə uzunmüddətli dövr üçün investisiya qoyuluşlarına əlverişli şəraitin yaradılması və bu əsasda iqtisadiyyatın sahələrinə yerli və xarici sərmayələrin cəlb edilməsi strateji hədəflərdən biri kimi nəzərdə tutulmuşdur. Qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları daha rəqabətli iqtisadiyyatın hərəkətverici qüvvəsi olacaqdır. Bu strategiyaların ardıcıl həyata keçirilməsi iqtisadiyyatın bütün sahələrində, o cümlədən tikinti sektorunda fəaliyyət göstərən şirkətlər tərəfindən investisiya resurslarından səmərəli istifadə edilməsi imkanlarının reallaşdırılması ilə sıx bağlıdır.

Ölkəmizin iqtisadiyyatında tikinti sektoru mühüm yer tutur. 2016-cı ildə tikinti sahəsində yaranmış əlavə dəyərin ümumi daxili məhsulda xüsusi çəkisi 10.6%, iqtisadi fəaliyyət növləri üzrə məşğulluqda 7.2%, əsas kapitala yönəldilən investisiyalarda 18.0% təşkil etmişdir.

Müasir şəraitdə tikinti müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilən müxtəlif investisiya layihə və proqramların hazırlanması və reallaşdırılması modernləşdirmə əsasında şirkətlərin gəlirlərinin dayanıqlı artırılmasına imkan yaradır.

Bununla əlaqədar, tikinti müəssisələrinin investisiya resurslarının istifadə edilməsinin ardıcıl surətdə təkmilləşdirilməsinə ehtiyac yaranır. Həmin istiqamətdə resurs yanaşmasının istifadə edilməsi əsasında tikinti müəssisələrinin investisiya imkanlarının optimallaşdırılması və investisiya resurslarının səmərəli idarə edilməsi mühüm rol oynaya bilər.

Tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və inkişafı prosesinə kompleks yanaşma səmərəliliyin yüksəldilməsinə təkan verir. İnvestisiya axınları, onların idarə edilməsi mexanizmlərinin ətraflı tətbiqi, habelə müasir inkişaf tendensiyalarının nəzərə alınması tikinti müəssisələrinin investisiya aktivliyinin yüksəldilməsi və əlverişli investisiya strategiyasının hazırlanması yollarının müəyyən edilməsi imkanlarını genişləndirir. Bu istiqamətdə araşdırmalar kompleks tədbirlərin müəyyən edilməsi nəticəsində tikinti müəssisələrinin investisiya fəaliyyətinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsinə yol açır.

Qeyd edilənlərlə əlaqədar, müasir şəraitdə tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və istifadə xüsusiyyətlərinin araşdırılması mühüm məsələlərdən biri kimi çıxış edir. Bu yönümdə, ilk

növbədə, investisiya resurslarının idarə edilməsinə sistemli yanaşmanın tətbiqi, investisiya siyasətinin idarə edilməsi konsepsiyasının işlənməsi, resursların səmərəli istifadəsi üçün tikinti müəssisələrinin investisiya fəaliyyətinin şərtləri və amillərinin müəyyən edilməsi ön sırada dayanır.

Qeyd edilənləri nəzərə almaqla, investisiya resurslarının formalaşması və səmərəli istifadəsi istiqamətlərinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** İnvestisiya fəaliyyətinin təşkilinin nəzəri əsaslarına və tikinti müəssisələrinin investisiya resurslarından istifadənin yaxşılaşdırılmasına xarici alimlərin işləri həsr edilib. Onların arasında A.H.Asaulu, A.B.Batrakı, B.M.Vasilyevi, B.A.Qoremikini, X.M.Qumbanı, B.Semyonovu, U.S.Stepanovu və s. göstərmək olar.

Respublikamızda tikinti müəssisələrinin investisiya resurslarının yaranması və istifadəsi problemlərinə M.A.Məmmədovun, İ.A.Mehdiyevin, Z.Ə.Səmədzadənin, İ.A.Aslanzadənin, R.A.Quliyevin, R.M.Əliyevin, H.A.Xəlilovun, V.M.Vəliyevin, N.M.Müzəffərlinin, T.H.Hüseynovun, S.V.Salahovun, Ə.M.Əliyevin, R.M.Məmmədovun, E.M.Yusifovun, B.H.Şirinovun, K.M.Məmmədovanın və s. işlərində baxılıb. Bununla yanaşı, dissertasiya işinin mövzusu ilə bağlı mühüm nəzəri və praktiki əhəmiyyəti olan problemlərin həlli metodoloji planda kifayət qədər işlənilməyib. İndiyə kimi tikinti müəssisələrinin investisiya siyasətinin idarə edilməsi konsepsiyası, tikinti müəssisələrinin investisiya resursları və layihələrinin dəyərinin idarə edilməsi strategiyasının hazırlanması, tikinti müəssisələrinin investisiya imkanlarının səmərəli istifadəsi üçün resurs təminatının modelləşdirilməsi mexanizmindən istifadə məsələləri ətraflı araşdırılmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi müasir mərhələdə tikinti müəssisələrində investisiya resurslarının formalaşması və istifadəsi məsələlərinin araşdırılması və əsas kapitala investisiyaların səmərəli istifadəsini təmin edən strateji idarəetmə mexanizmlərin yaradılması üzrə elmi əsaslandırılmış təkliflərin hazırlanmasından ibarətdir.

Dissertasiyada qarşıya qoyulmuş məqsədə nail olmaq üçün tədqiqatın aşağıdakı vəzifələri müəyyən edilmişdir:

– tikinti müəssisələrinin investisiya fəaliyyətinin xüsusiyyətlərinin araşdırılması;

– tikinti şirkətlərinin investisiya resurslarının formalaşdırılmasının nəzəri-metodoloji məsələlərinin tədqiqi;

– ölkəmizdə həyata keçirilmiş sistem transformasiyaları gedişində tikinti müəssisələrində aparılan islahatların nəticələrinin açıqlanması;

– tikinti şirkətlərində inkişafın investisiya amilinin potensialının dəyərləndirilməsi;

– tikinti müəssisələrinin investisiya resurslarının formalaşması amillərinin araşdırılması;

– tikinti müəssisələrinin investisiya resurslarından istifadənin səmərəliliyinin təhlil edilməsi;

– müasir şəraitdə tikinti şirkətlərində investisiya fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi əsasında sərmaye resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərinin tədqiq edilməsi.

**Tədqiqatın predmeti.** Tədqiqat işinin predmetini tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və səmərəli istifadəsi mexanizmləri təşkil edir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında fəaliyyət göstərən tikinti müəssisələridir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını iqtisadiyyatın inşaat sferasında fəaliyyət göstərən şirkətlərdə investisiya resurslarından istifadəni araşdıran iqtisadçı alimlərin əsərləri, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərmanları və başqa hüquqi-normativ sənədlər təşkil etmişdir.

Tədqiqat prosesində məntiqi-sistemli yanaşma, müqaisəli təhlil, qruplaşdırma, struktur təhlili və digər metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Arxitektura və Şəhərsalma Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, tikinti şirkətlərinin məlumatları və hesabatları, həmçinin tədqiqat mövzusuna dair ölkəmizdə və xaricdə nəşr olunan elmi əsərlər, elmi-praktiki konfransların materialları, internet resursları istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

– tikinti müəssisələrinin inkişafında investisiya amilinin rolu və investisiya resurslarının formalaşması və istifadəsinin xüsusiyyətləri açıqlanmışdır;

– sistem transformasiyalarının gedişində aparılan əsaslı islahatlar nəticəsində tikinti şirkətlərinin yeni strukturunun, resurs potensialının və

fəaliyyət istiqamətlərinin təşəkkülü sistemli araşdırılmış və müvafiq dəyərləndirmələr aparılmışdır;

– müasir mərhələdə tikinti sahəsində əsas kapitala investisiyaların dinamikası və strukturunda baş vermiş irəliləyişlərin inşaat şirkətlərinin resurs təminatına təsirinin əsas istiqamətləri müəyyən edilmişdir;

– tikinti müəssisələrində əsas kapitala investisiyaların səmərəlilik göstəricilərinin dinamikasında xüsusiyyətlər və onları şərtləndirən başlıca amillər açıqlanmışdır;

– müasir mərhələdə ölkə iqtisadiyyatının tikinti sektorunda fəaliyyət göstərən şirkətlərində investisiya resurslarının formalaşması və səmərəli istifadəsinin prioritet istiqamətləri göstərilmişdir;

– tikinti müəssisələrində investisiya siyasətinin idarə edilməsi üzrə konsepsiyasının hazırlanmasına dair tövsiyələr hazırlanmışdır;

– tikinti şirkətlərinin investisiya layihələrinin dəyərinin idarə edilməsinin səmərəli strategiyasının formalaşdırılmasına yönəldilmiş təkliflər irəli sürülmüşdür;

– resurs təminatının modelləşdirilməsinin investisiya imkanlarının səmərəli istifadəsində rolu müəyyən edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işində aparılan tədqiqat nəticəsində hazırlanmış tövsiyyələr tikinti müəssisələrinin investisiya resurslarının səmərəli istifadə olunmasına, tikinti müəssisəsinin inkişafı üzrə konsepsiyaların və strategiyaların işlənməsi üzrə səmərəli idarəetmə qərarlarının qəbul edilməsinə, inşaat şirkətlərində modernləşdirmə proseslərinin gedişini sürətləndirməyə imkan və şərait yaradır.

Tədqiqatın nəticələri, hazırlanmış tövsiyyələr, irəli sürülmüş müddəalar iqtisadiyyatın tikinti sektorunun inkişafı üzrə strateji yönümlü sənədlərin layihələrinin hazırlanması, inşaat şirkətləri tərəfindən investisiyaların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi zamanı, habelə ali məktəblərdə "İnvestisiya menecmenti" fənninin tədrisi prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticəsinin aprobasiyası.** Dissertasiya işinin əsas nəticələri, irəli sürülmüş elmi müddəalar Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilmiş Beynəlxalq Elmi-Praktiki Konfransında (4-5 dekabr Bakı-2014), Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi konfransında (7-8 aprel Bakı-2015), Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransında (17-18 aprel Bakı-2015), Azərbaycan Texniki Universitetində keçirilmiş Respublika Elmi Konfransında (Bakı-

2016), Mingəçevir Dövlət Universitetində keçirilmiş Respublika Elmi konfransında (23-24 dekabr Mingəçevir-2016) məruzə edilmişdir. Dissertasiya işində alınmış nəticələr və verilən təkliflər “Azərinşaatlayihə” Dövlət Baş Layihə-Konstruktor Texnoloji İnstitutu tərəfindən müvafiq müəssisələrin investisiya resurslarının dəyərləndirilməsində və onların istehsalat-təsərrüfat fəaliyyətində tətbiq olunması tövsiyə edilmişdir.

**Tədqiqatın nəticələrinin nəşr olunması.** Tədqiqatın əsas müddəaları dissertasiya işinin mövzusu üzrə dərc olunmuş və ümumi həcmi 3,7 çap vərəqi olan 8 məqalə və 6 tezisdə öz əksini tapmışdır.

**İşin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və 156 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olan ümumi həcmi 149 səhifədir. İşdə 26 cədvəl, 11 sxem və 9 diaqram verilmişdir.

## İŞIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Girişində** mövzunun aktuallığı, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti əsaslandırılmış, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

**“Tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və istifadəsinin nəzəri-metodoloji əsasları”** adlanan birinci fəsildə tikinti müəssisələrinin investisiya fəaliyyətinin xüsusiyyətləri açıqlanmış, müəssisələrin investisiya resurslarının istifadəsinin səmərəliliyinin dəyərləndirilməsinin metodoloji məsələləri araşdırılmış, investisiya layihələrinin idarə edilməsinə müasir yanaşmalar göstərilmişdir.

İnvestisiya fəaliyyəti tikinti müəssisələrinin əsas strateji inkişaf amillərindəndir. İnvestisiya qoyuluşları dəyişən fəaliyyət mühiti şəraitində inşaat şirkətlərinin dayanıqlığını təmin edir və xarici mühitdə baş verən mənfi amillərin qarşısını almağa imkan yaradır. Müasir şəraitdə tikinti müəssisələrinin əldə edilmiş nəticələr üzərində dayanmamaları, gələcəkdə rəqabətə davamlılığın təmin olunması tələblərinə uyğun olaraq, ardıcıl modernləşdirmə tədbirləri həyata keçirmələri tələb olunur. Bu isə tikinti müəssisələrinin investisiya fəaliyyətinin yaxşılaşdırılması və yeni investisiya resurslarının cəlb edilməsi əsasında mümkündür.

Tikintidə digər istehsal ehtiyatları - əmək, maddi və qeyri-maddi resursları ilə birgə, investisiya resurslarının cəlb edilməsi və səmərəli istifadəsi inşaat şirkətlərinin yerinə yetirdikləri tikinti-quraşdırma işlərinin, bütünlükdə istehsal prosesinin fasiləsizliyini təmin edir.

Dissertasiyada müasir mərhələdə tikinti şirkətlərinin investisiya resurslarının formalaşması mənbələri təhlil olunur və həmin mənbələrin strukturunun optimallaşdırılması strategiyasının reallaşdırılmasının zəruriliyi əsaslandırılır. Müəllifin fikrincə, tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və səmərəli istifadəsi məqsədi ilə resurs yanaşmasının tətbiq edilməsi investisiya fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsinin yeni istiqaməti kimi qəbul oluna bilər.

Tikinti müəssisələrinin investisiya fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsi strategiyası resurs yanaşmasına uyğun hazırlanmalı və həyata keçirilməlidir. Resurs yanaşmasının istifadəsinə müvafiq, tikinti müəssisələrinin investisiya fəaliyyətinin tənzimlənməsi tikinti obyektlərinin idarə edilməsini yaxşılaşdırır. İşdə qeyd olunur ki, investisiya fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsində başlıca amillərdən biri mənfəətin maksimuma çatdırılması üçün kompleks təhlilin aparılmasıdır.

Tikintidə səmərəli investisiya fəaliyyətinin həyata keçirilməsi əsasında modern maddi-texniki bazasının formalaşdırılması sahənin perspektiv inkişaf imkanlarını genişləndirməyə şərait yaradır. Dissertasiyada tikinti şirkətlərində əsas kapitala investisiyaların səmərəliliyinin dəyərləndirilməsi məqsədilə istifadə edilən göstəricilərin məzmunu açıqlanır. Qeyd olunur ki, həmin götəricilər həm müəssisələrdə investisiya strategiyalarının hazırlanması və reallaşdırılması, həm də konkret investisiya layihələrinin hazırlanması və seçilməsi zamanı tətbiq olunur. Birinci məqsəd üçün daha çox uyğun gələnlər mənfəətin bəsit norması (simple rate of return, SRR) və ya əsas kapitala investisiyaların səmərəlilik əmsalı və kapital qoyuluşlarının qaytarılma müddəti göstəriciləridir. İşin məqsədinə bilavasitə uyğunluğunu nəzərə alaraq, tədqiqatın sonrakı gedişində məhz həmin göstəricilər üzrə müfəssəl təhlillər aparılmışdır.

Dissertasiyada göstərilir ki, səmərəliliyin təmin olunması baxımından, tikinti müəssisəsinin investisiya fəaliyyətinin tənzimlənməsi və investisiya proseslərinin inkişaf etdirilməsi ilə bağlı, aşağıdakı tələblər gözlənilməlidir:

− tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və istifadəsinin məqsədi onların investisiya fəaliyyətinin xarici mühitinin dinamiklik səviyyəsinə uyğunlaşdırılmalıdır;

− xarici mühitdə baş verən dəyişikliklərə uyğun olaraq, həmin mühitin elementlərinin davranışının dəyişməsi tikinti müəssisəsinin investisiya resurslarının formalaşması və istifadəsinin məqsədində nəzərə alınmaqla daim dəqiqləşdirilməlidir;

− tikinti müəssisələrinin investisiya fəaliyyətinin idarə edilməsi metodları, üsulları, vəzifələri və funksiyaları resurs yanaşmasına uyğun olmalıdır. Tikinti müəssisələrinin investisiya resurslarının formalaşması və istifadəsi zamanı investisiya fəaliyyəti üzrə qərarların qəbul edilməsinə sistem əmələ gətirən amillər kimi baxılır. İnvestisiya layihələri və proqramlarının reallaşdırılması prosesləri müsbət nəticə vermədiyi halda investisiya resurslarının səmərəli formalaşması və istifadəsi mümkün deyil.

Müəyyən dövrdə investisiya sahəsində qəbul olunan qərarları bitmiş və son hesab etmək olmaz, ona daim düzəlişlər edilməli və müvafiq dəqiqləşdirilmələr aparılmalıdır. Buna resurs yanaşmasının və tikinti müəssisəsinin idarə edilməsinin xarici mühitinin dəyişməsinin tələbi kimi baxmaq olar.

Dissertasiyada investisiya fəaliyyətinin səmərəli idarə edilməsinə yanaşmalar təhlil olunur. Müəllifin fikrincə bu istiqamətdə müasir metodların və üsulların istifadə edilməsinə uyğun, tikinti müəssisələrinin investisiya resurslarının formalaşması istiqamətlərinin və xarici mühit elementlərinin davranış strukturunun təhlili aparılmalıdır. Xaricdən alınan müvafiq siqnallara əsasən tikinti müəssisəsi tərəfindən idarəetmə elementlərinin davranışı təhlil edilməli və qarşıda duran vəzifələrin öhdəsindən gəlinməsi təmin olunmalıdır. Əvvəlcədən tikinti müəssisəsinin idarə edilməsinin xarici mühit elementlərinin davranışının müəyyən edilməsi sayəsində müvafiq üstünlüklər və zəif cəhətlər aşkar edilir, tikinti iştirakçıları arasında qarşılıqlı münasibətlər qurulur.

Eyni zamanda, investisiya layihələrinin qiymətləndirilməsinə onların kateqoriyaları üzrə fərqli yanaşılmalıdır. İri miqyaslı layihələr qiymətləndirilən zaman, mütləq, onun sosial əhəmiyyəti müəyyən edilməlidir. Əgər layihələr sosial-iqtisadi cəhətdən əhəmiyyətlidirsə, onda həmin layihələrin kommersiya səmərəliliyi qiymətləndirilir. Yerli əhəmiyyətli (kiçik) investisiya layihələrinin kommersiya səmərəliliyi müəyyən edilməli və onun nəticələri əsasında reallaşdırma barədə tövsiyyə qəbul edilməlidir.

Hər bir layihə işlənilərkən əvvəlcədən müəyyən edilən ideya nəzərə alınır. Həmin ideyaya uyğun tikinti müəssisələrinin layihələrində onun yaranması səbəbləri araşdırılır. Bunlara aşağıdakılar aid edilə bilər:

- resursların artıq olması;
- tikintidə tələbin təmin olunması vəziyyəti;
- kredit verən bankların maraqları və s.

İnvestisiya layihəsinin ideyasının axtarışı dövründə bu işə mütəxəssislərin cəlb edilməsi məqsədyönlüdür. Ümumiyyətlə, ideyanın irəli sürülməsi və reallaşdırılması mərhələlərində mövcud yaradıcılıq təfəkkürü potensialı tam istifadə olunmalıdır.

İdeya həyata keçirilərkən müəyyən meyarlar, məsələn, istehsal olunacaq yeni məhsulu mənimsəmək üçün investisiyanın həcmi və alınacaq mənfəətin (gəlirin) məbləği nəzərə alınmalıdır. İdeyanın həyata keçirilməsi müvafiq marketinq tədqiqatının nəticələrinə əsaslanmalıdır. İdeyanın tətbiqinin müxtəlif imkanları olduğuna görə, tikinti müəssisəsi investisiya layihəsinin məqsədini əvvəlcədən bilməlidir.

Tikinti bazarında investisiya layihələrinin strateji idarə edilməsi və tikinti müəssisəsinin investisiya axınlarının tənzimlənməsi müəssisələrin, binaların, qurğuların tikintisində investisiyaların əsaslandırılmasına, o cümlədən investisiya axınlarının texniki-iqtisadi göstəricilərinin müəyyən edilməsinə əsasən aparılır. Dissertasiyada xarici ölkələrin tikinti müəssisələrinin investisiya axınlarının tənzimlənməsi və strateji idarə edilməsi təcrübəsinə baxılır və konkret istiqamətlər üzrə onun müsbət cəhətləri açıqlanır.

İşdə investisiya fəaliyyətinin informasiya təminatı məsələləri nəzərdən keçirilir. Qeyd olunur ki, resurs yanaşmasının tətbiqinə əsasən tikinti müəsisələrinin investisiya fəaliyyətinin planlaşdırılması və təhlilinin aparılmasında informasiya göstəricilərinin seçimi və informasiyanın toplanması mühüm əhəmiyyətə malikdir. Tikinti müəssisələrinin səmərəli investisiya fəaliyyətini təmin etmək üçün investisiya informasiyalarının toplanması fasiləsiz olmalıdır. Daxil olan informasiyaya əsasən, tikinti müəssisəsinin həm daxili və həm də xarici investisiya mühiti qiymətləndirilə bilər. Həmin qiymətləndirmənin nəticəsinə müvafiq olaraq, tikinti müəssisəsinin hazırladığı investisiya fəaliyyətinin strategiyasında dəyişikliklər, düzəlişlər edilə bilər və bu zaman yenidən qiymətləndirmə aparılmalıdır.

İnvestisiya layihəsində iştirak edənlərin tərkibini dəqiqləşdirdikdən və onların funksiyaları haqqında müvafiq informasiyalar yığıldıqdan sonra hər bir iştirakçı üçün fəaliyyətin idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi aparılmalıdır. İnvestisiya layihəsində iştirak edənlər eyni vaxtda müxtəlif funksiyaları yerinə yetirdikdə həmin funksiyaların təsviri verilməlidir. Bununla əlaqədar, iştirakçıların maliyyə vəziyyəti və istehsal resursları haqqında informasiyaların yığılması məqsədəuyğundur. Tikinti müəssisəsinin investisiya fəaliyyətinin idarəetmə sisteminin

səmərəliliyi əhəmiyyətli dərəcədə informasiyaların tam toplanılmasından asılıdır.

Tikinti müəssisələrində investisiya fəaliyyətinin idarə edilməsinin informasiya sisteminin yaradılması üçün informasiyaların yığılması, sistemləşdirilməsi, istifadəsi səmərəli olmalı və onlara əsasən tikinti müəssisəsinin investisiya fəaliyyətinin strateji məqsədinə nail olmaq məqsədi ilə resurs yanaşması tətbiq edilməlidir.

**“Müasir mərhələdə tikinti müəssisələrində investisiya resurslarının dinamikası və səmərəliliyi”** adlanan ikinci fəsildə ölkəmizdə sistem transformasiyalarının gedişində tikinti müəssisələrində həyata keçirilmiş islahatların nəticələri və inkişafın investisiya amilinin mövcud potensialı açıqlanmış, tikinti sahəsində əsas kapitala investisiyaların dinamikası və strukturunun formalaşması amilləri tədqiq edilmiş, habelə investisiya qoyuluşlarının səmərəlilik göstəricilərinin təhlili aparılmışdır.

Dissertasiyada dövlət müstəqilliyi şəraitində həyata keçirilən əsaslı islahatlar nəticəsində tikinti sahəsində də institusional dəyişikliklərin baş verdiyi, mülkiyyətin müxtəlif növlərinə aid müəssisələr şəbəkəsi formalaşdığı göstərilir. Postislahat dövründə qeyri-dövlət tikinti şirkətlərinin sayı ardıcıl olaraq yüksəlmişdir. Hal-hazırda müəssisələrin sayında xüsusi müəssisələr dominantlıq təşkil edir. 2016-cı ildə ümumi tikinti şirkətlərinin tərkibində qeyri-dövlət müəssisələrin payı 84.2%-ə bərabər olmuşdur. Fəaliyyət göstərən tikinti müəssisələrinin yerinə yetirdiyi işlərin təxminən 1/6 hissəsi dövlət, 5/6 hissəsi isə qeyri-dövlət müəssisələrinin payına düşür.

Ölkəmizdə uğurla həyata keçirilən sürətli inkişaf strategiyası çərçivəsində tikinti müəssisələrin sayının artması onların istehsal potensialının yüksəlməsi ilə müşaiət olunmuşdur. İnşaat şirkətləri tərəfindən yerinə yetirilmiş işlərin həcmi dinamik olaraq artmışdır. İşdə müasir şəraitdə tikinti sahəsində müəssisələr tərəfindən yerinə yetirilən işlərin həcmi və strukturunda bütövlükdə ölkə və ayrı-ayrı regionlar üzrə baş verən dəyişikliklər ətraflı təhlil olunur və müvafiq dəyərləndirmələr aparılır. Bu istiqamətdə bütün regionlar üzrə inşaat şirkətlərinin potensialının yüksəldilməsi məqsədilə investisiyaların cəlb edilməsi və səmərəli istifadəsinin zəruri olduğu göstərilir.

Ölkə iqtisadiyyatının digər sektorlarında olduğu kimi, tikinti sahəsində də investisiya qoyuluşlarının artımında dinamik yüksəlmə baş vermişdir. Əsas kapitala yönəldilmiş investisiyaların dəyəri 2005-2016-cı illərdə 5 dəfəyə yaxın çoxalmışdır. (Cədvəl 1.)

İnvestisiyaların illər üzrə artımında 2005-2009-cu illər üçün səciyyəvi olan qeyri-stabillik 2010-cu ildən aradan qaldırılmış və yalnız 2015-ci ildə müəyyən qədər azalma müşahidə olunmuşdur.

Cədvəl 1.

**Tikintidə əsas kapitala investisiyaların dinamikası**

| İllər | Tikinti sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalar | | | |
|---|---|---|---|---|
| | mln. man. | əvvəlki ilə nisbətən %-lə | baza dövrünə nisbətən dəyişmə (faiz və ya dəfə) | |
| 2005 | 580.2 | - | 100.0 | |
| 2006 | 453.8 | 78.2 | 78.2 | |
| 2007 | 484.4 | 106.7 | 83.5 | |
| 2008 | 813.6 | 168.0 | 140.2 | |
| 2009 | 681.0 | 83.7 | 117.4 | |
| 2010 | 925.1 | 135.8 | 159.4 | 100,0 |
| 2011 | 1157.5 | 125.1 | 2.0 d. | 135.3 |
| 2012 | 1868.2 | 161.4 | 3.2 d. | 2.0 d. |
| 2013 | 1894.8 | 101.4 | 3.3 d. | 2.0 d. |
| 2014 | 2221.7 | 117.3 | 3.8 d. | 2.4 d. |
| 2015 | 2123.5 | 95.6 | 3.7 d. | 2.3 d. |
| 2016 | 2831.8 | 133.4 | 4.9 d. | 3.1 d. |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

2010-cu ildən sonrakı dövrdə tikinti sahəsində investisiya qoyuluşları bütövlükdə iqtisadiyyat üzrə müvafiq göstərici ilə müqayisədə daha yüksək templə artmışdır. Nəticədə tikintiyə investisiyaların əsas kapitala ümimi investisiya qoyuluşlarında xüsusi çəkisi 2010-2016-ci illərdə 8.7 faiz bəndi yüksəlmiş və ya 9.3%-dən 2016-cı ildə 18.0%-ə çatmışdır. Tikinti sahəsinə həm daxili və həm də xarici investisiyalar üstün templərlə artmışdır.

İnvestisiya qoyuluşları tikinti sahəsində istifadəyə verilmiş əsas fondların dəyərinin sürətlə yüksəlməsilə nəticələnmişdir. Bu göstərici 2005-2016-cı illərdə 6 dəfəyə yaxın artmışdır. Dissertasiyada əsas kapitala yönəldilmiş investisiyaların və istifadəyə verilmiş əsas fondların dəyərinin illər üzrə müqayisəli təhlili aparılır. Göstərilir ki, bu göstəricilər arasında fərq nisbi ifadədə azalmışdır (Diaqram 1). Eyni zamanda, 1-ci diaqramın və 1-ci cədvəlin müvafiq məlumatlarının müqayisəli təhlilindən aydın olduğu kimi, qeyd edilən göstəricilər arasında fərq mütləq ifadədə sürətlə artmışdır.




**Diaqram 1. Tikinti müəssisələrində istifadəyə verilmiş əsas fondların mütləq və nisbi göstəricilərinin dinamikası**

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Bu, öz növbəsində tikinti müəssisələrində investisiyaların mənimsənilməsi ilə bağlı məsələlərin kompleks həllinin öz aktuallığını saxladığının göstəricisi kimi qəbul olunmalıdır.

Dissertasiyada tikinti müəssisələrində investisiya qoyuluşlarının əsas vəsaitlərin strukturunda baş verən dəyişikliklərə təsiri də araşdırılır. Göstərilir ki, 2000-2010-cu illərdə tikinti müəssisələrinin əsas vəsaitlərinin strukturunda baş verən irəliləyişləri müsbət qiymətləndirmək olar. Eyni zamanda, sonrakı dövrdə həmin dəyişikliklər ardıcıl davam etdirilməmişdir (Cədvəl 2).

2010-cu ildə müəssisənin balansında olan bina və qurğuların xüsusi çəkisi 28.3% olmuş, sonrakı illərdə, demək olar ki, mütəmadi olaraq yüksələrək 2015-ci ildə 47.4%-ə, 2016-cı ildə isə 53.2%-ə çatmışdır. Əsas vəsaitlərin tərkibində bina və qurğuların xüsusi çəkisi uzun müddətli dövr ərzində aşağı düşsə də, orta müddətli dövrdə əhəmiyyətli yüksəliş baş vermiş, maşın və avadanlıqların payı isə əksinə həm uzun, həm də qısamüddətli dövrdə xeyli aşağı düşmüşdür.

Cədvəl 2.

**Tikinti müəssisələrində əsas fondların strukturunun dəyişməsi (%)**

| İllər | Bina və qurğular | Maşın və avadanlıqlar | Nəqliyyat vasitələri | Digər vəsaitlər |
|---|---|---|---|---|
| 2000 | 59.2 | 30.0 | 7.3 | 3.5 |
| 2005 | 49.5 | 36.6 | 9.1 | 4.8 |
| 2010 | 28.3 | 33.4 | 37.9 | 0.4 |
| 2011 | 32.8 | 29.3 | 31.9 | 6.0 |
| 2012 | 31.7 | 36.5 | 25.3 | 6.5 |
| 2013 | 40.1 | 31.7 | 23.3 | 4.9 |
| 2014 | 40.3 | 32.6 | 23.3 | 3.8 |
| 2015 | 47.4 | 27.2 | 21.6 | 3.8 |
| 2016 | 53.2 | 26.0 | 17.5 | 3.3 |
| 2016-cı ildə dəyişmə (faiz bəndi ilə): | | | | |
| 2000-ci ilə nisbətən | -6.0 | -4.0 | +10.2 | -0.2 |
| 2010-cu ilə nisbətən | +24.9 | -7.4 | -20.4 | +2.9 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

2000-2016-cı illərdə müvafiq istiqamətlər üzrə baş vermiş dəyişikliklər, tikinti müəssisələrinin əsas kapitalının daha səmərəli strukturunun təmin edilməsi baxımından, əlverişli hesab edilə bilməz. Əsas vəsaitlərin strukturunda maşın və avadanlıqların xüsusi çəkisi yüksək deyil və 2010-2016-cı illərdə bu göstərici 33.4%-dən 26.0%-dək azalmışdır.

Qeyd etmək lazımdır ki, tikinti müəssisələrində maşın və avadanlıqların dəyəri mütləq ifadədə ardıcıl olaraq yüksəlir. Tikinti şirkətlərinin maşın və avadanlıqlarının həcmi dəyər ifadəsində 2000-2005-ci illərdə 1.7 dəfə, 2005-2016-cı illərdə 3.3 dəfə artmışdır. Bununla yanaşı, tikinti müəssisələrinin əsas vəsaitlərinin aktiv ünsürlərinin dəyər ifadəsində artımının nisbi göstəricisi passiv ünsürlər üzrə müvafiq göstəricidən geri qalmışdır.

Əsas vəsaitlərin aktiv ünsürlərindən olan nəqliyyat vasitələrinin xüsusi çəkisi 2010-2016-cı illərdə 37.9%-dən 17.5%-ə düşmüşdür. Son illərdə nəqliyyat vasitələrinin dəyər ifadəsində artımının dinamikasında davamlılıq təmin edilmir. Tikinti müəssisələrinin nəqliyyat vasitələrinin dəyəri 2000-2014-cü illərdə 49.0 mln. manatdan 766.3 mln. manata qədər yüksəlmiş, eyni zamanda, bu göstərici 2015-ci ildə 733.9 mln.manat, 2016-cı ildə isə 760.0 mln. manat olmuşdur.

Tikinti müəssisələrində əsas fondların strukturunda baş verən dəyişikliklər, öz növbəsində, texniki yeniləşmə problemini sonadək həll etməyə imkan yaratmamışdır. Hələlik, tikinti müəssisələrində texnikanın xeyli hissəsi köhnədir.

2016-cı ildə tikinti şirkətlərində birçalovlu ekskavatorların 15.0%-nin, skreperlərin 43.1%-nin, avtoqreyderlərin 11.0%-nin, pnevmotəkərli kranların 16.9%-nin, qülləli kranların 18.6%-nin, avtomobil kranların 13.1%-nin xidmət müddəti keçmişdir.

Dissertasiyada tikinti sektorunda əsas kapitala investisiyaların səmərəliliyinin səviyyəsi və dinamikası mənfəətin bəsit norması, 1 manat investisiyaya düşən əlavə dəyər və yerinə yetirilmiş işlərin həcmi, habelə kapital qoyuluşlarının qaytarılma müddəti göstəriciləri əsasında araşdırılır. Tədqiq edilən dövrdə investisiyaların səmərəlilik göstəriciləri üçün qeyri-stabil dəyişikliklər səciyyəvi olmuşdur. 2-ci diaqramdan aydın olduğu kimi, tikinti sahəsində mənfəətin bəsit norması 2005-2011-ci illərdə yüksəlmə meyli nümayiş etdirsə də, 2012-2014-cü illərdə göstəricinin səviyyəsində kəskin enmələr müşahidə edilmişdir. Sonrakı illərdə müəyyən yüksəlmə baş vermişdir.

Əsas kapitala investisiyaların səmərəlilik səviyyəsinin nəzərdən keçirilən göstəricisinin dinamikasında belə xüsusiyyəti, 2010-cu illərdə inşaat sektorunda daha yüksək templə artmış olan əsas kapitala investisiyaların mənimsənilməsi ilə bağlı, mənfəətin çoxalmasında müvafiq laqın yaranması ilə izah etmək olar.




**Diaqram 2. Tikinti sektorunda mənfəətin bəsit norması (SRR)**

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Ümumilikdə, hazırkı şəraitdə ölkəmizin tikinti müəssisələrində əsas kapitala investisiyaların səmərəlilik səviyyəsi iqtisadiyyatın digər əsas sahələrində fəaliyyət göstərən müəssisələrin müvafiq göstəricilərindən geri qalır. Belə ki, 2014-2016-cı illərdə 1 manat əsas kapitala investisiyalara düşən mənfəətin orta göstəricisi tikinti müəssisələri üzrə 0.2 manat, sənaye müəssisələri üzrə 2.21 manat, nəqliyyat müəssisələri üzrə 1.25 manat, rabitə müəssisələri üzrə 1.32 manat təşkil etmişdir.

Dissertasiyada aparılmış təhlillər əsasında göstərilir ki, tikinti sektorunun inkişafına yönəldilən investisiyalar uzunmüddətli dövrdə bu sahədə yaradılan əlavə dəyərin və inşaat şirkətlərinin öz gücləri ilə yerinə yetirdikləri işlərin ümumi həcminin yüksək templərlə artmasına imkan yaratmışdır. Eyni zamanda, müvafiq nisbi göstəricilərin- 1 manatlıq investisiya qoyuluşlarına düşən əlavə dəyərin və yerinə yetirilmiş tikinti işlərinin həcmində əsaslı irəliləyişlər olmamışdır. Bununla yanaşı, orta müddətli dövrdə həmin göstəricilərin səviyyəsində müəyyən qədər enmələr müşahidə edilmişdir.

Dissertasiyada göstərilir ki, tikinti müəssisələrində əsas kapitala investisiyaların qaytarılma müddəti göstəricisinin illər üzrə dinamikasında kəskin qalxıb-enmələr mövcuddur. Həmin göstəricinin orta illik qiymətlərində uzunmüddətli dövr baxımından stabil artım meylinin qərarlaşdığını söyləmək də qeyri-mümkündür. Tikinti müəssisələrində investisiyaların qaytarılma müddətinin orta göstəricisi 2005-2007-ci illərdə 5.0, 2008-2010-cu illərdə 4.8, 2011-2013-cü illərdə 6.8, 2014-2016-cı illərdə 5.0 il təşkil etmişdir.

Tikinti müəssisələrində əsas kapitala investisiyaların qaytarılma müddətinin səviyyəsinə investisiya qoyuluşlarının istifadə istiqaməti amili də təsir etmişdir. Belə ki, son illərdə tikinti müəssisələrinin bir çoxu, ümumən, qaytarılma müddəti daha yüksək olan investisiya layihələrini (o cümlədən, infrastruktur layihələri) icra etmişlər. Bununla yanaşı, tikinti müəssisələrində həmin göstəricinin dinamikasında dayanıqlı müsbət tendensiyanın formalaşması ilə bağlı problemlərin həllinə diqqətin artırılması vacibdir.

Dissertasiyada qeyd edilir ki, investisiyalar əsas fondların artımını təmin etməklə, tikinti şirkətlərinin və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə və fəaliyyətlərinin genişlənməsinə yol açır. Eyni zamanda, investisiyaların səmərəliliyi göstəricilərinin səviyyəsi əhəmiyyətli dərəcədə əsas fondlardan istifadənin effektivliyi ilə şərtlənir. Bunu nəzərə alaraq, işdə tikinti müəssisələrində fond verimi, habelə əmək məhsuldarlığı

göstəricilərinin dinamikası təhlil olunur. Müasir şəraitdə həmin göstəricilərin yüksəldilməsi ilə əsas kapitala investisiyaların səmərəliliyi göstəricilərinin yaxşılaşdırılması əhəmiyyətli dərəcədə bağlıdır.

**“Tikinti müəssisələrinin investisiya fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi əsasında sərmaye resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri”** adlanan üçüncü fəsildə tikinti müəssisələrində investisiya siyasətinin idarə edilməsi konsepsiyasının hazırlanması məsələləri araşdırılır, investisiya layihələrinin dəyərinin səmərəli idarə edilməsi strategiyasının formalaşdırılması istiqamətləri tədqiq olunur, investisiyaların səmərəli istifadəsində resurs təminatının modelləşdirilməsinin rolu və əhəmiyyəti açıqlanır.

Tikinti müəssisələrində investisiya fəaliyyətinin uğurla həyata keçirilməsi müvafiq investisiya siyasətinin hazırlanmasını tələb edir. Bu siyasət inşaat şirkətlərində investisiya fəaliyyətinin prioritet istiqamətlərinin reallaşdırılması metodlarının və vasitələrinin seçilməsinə istiqamətlənməlidir.

Həmin istiqamətdə müəyyən olunmuş məqsədlərə çatılması investisiya siyasətinin idarə edilməsi üzrə əlverişli konsepsiyanın hazırlanmasını tələb edir.

Qeyd edilən konsepsiya investisiya siyasətinin strateji məqsədləri və prioritetləri və onların reallaşdırılmasının əsas istiqamətləri barədə baxışları əhatə edir. Müasir şəraitdə səmərəli investisiya siyasətinin idarə edilməsi konsepsiyası aşağıdakı yanaşmaları nəzərdə tutmalıdır:

- investisiya resurslarının və investisiya qoyuluşlarının həyata keçirilməsi alətlərinin seçiminin əsaslandırılması;
- investisiya fəaliyyətinin investorun gəlirlərinin artırılması vasitəsilə onun mənafelərinin təmin olunmasına yönəldilməsi;
- obyektin investisiya cəlbediciliyinin dəyərləndirilməsi və bunun əsasında investisiya qoyuluşunun həcmi və müddətlərinin müəyyən edilməsi.

Dissertasiyada göstərilir ki, investisiya siyasətinin idarə edilməsi konsepsiyasının əsas məqsədi tikinti müəssisələrinin investisiya fəaliyyətinin idarə edilməsinin daxili və xarici dəyişikliklərə reaksiya verməsi qabiliyyətinin və investisiya resurslarının tarazlıq vəziyyətinin saxlanmasıdır.

Bu baxımdan, tikinti müəssisəsinin investisiya resurslarının formalaşması və investisiya axınlarının tənzimlənməsi mexanizmləri investisiya siyasətinin idarə edilməsi konsepsiyasının həyata keçirilməsinə

əsaslanır. Konsepsiyaya müvafiq olaraq, investisiya ideyasının işlənməsindən sonra məqsəd və vəzifələrin formalaşdırılması həyata keçirilir, tikinti müəssisəsinin investisiya fəaliyyətinin istiqamətləri müəyyən edilir. İnvestisiya siyasətinin idarə edilməsi konsepsiyasına uyğun olaraq, tikinti müəssisəsinin (investor kimi) niyyətləri haqqında bəyannamə hazırlanır və layihəqabağı məlumatlara əsasən, investisiyanın əsaslandırılması həyata keçirilir.

İşdə müasir mərhələdə investisiya resurslarının istifadəsində səmərəlilik səviyyəsinin yüksəldilməsi üçün tikinti müəssisələrinin investisiya siyasətinin idarə edilməsi konsepsiyasının həyata keçirilməsinin mərhələlərə bölünməsinin məqsədəuyğun olduğu göstərilir, bu sahədə konkret mərhələlər ayrılır və onların hər birinin məzmunu açıqlanır.

Tikinti müəssisələrində investisiyaların səmərəliliyinin yüksəldilməsi layihələrin dəyərinin idarə edilməsi strategiyasının formalaşdırılması ilə bağlıdır. Dissertasiyada göstərilir ki, tikinti müəssisələrinin investisiya layihəsinin dəyərinin qiymətləndirilməsi metodları qiymətləndirmə məqsədlərindən və investisiya layihəsinin həyat tsikli mərhələsindən asılı olaraq seçilir.

Tikinti müəssisələrinin investisiya resurslarının idarə edilməsi strategiyasının formalaşması çərçivəsində layihənin dəyərinin qiymətləndirilməsi resursların strukturunun müəyyən edilməsi ilə bağlıdır. Bu istiqamətdə investisiyaqabağı və investisiya mərhələlərində tikinti müəssisələrinin xərclərini ayırmaq məqsədəuyğundur.

İnvestisiyaqabağı mərhələyə eskiz layihəsinin işlənməsi, biznes-planın hazırlanması, investisiya təkliflərinin öyrənilməsi və digər sənədlərin tərkibinin müəyyən edilməsi daxildir. Bilavasitə investisiya mərhələsinə isə investisiyaların əsaslandırılması, investisiyanın həcminin hesablanması və işçi layihələrinin hazırlanması, işçi sənədlərin və işlərin icra edilməsi, xidmətlərin yerinə yetirilməsi, qarşılıqlı hesablamalar üzrə sənədlərin tərkibinin müəyyən edilməsi aiddir.

İnvestisiya tsiklinin bütün mərhələləri üzrə tikintinin dəyərinin proqnoz qiymətləndirilməsi verilməlidir. İriləşdirilmiş smeta normaları və normativləri məsələn, preyskurantlar, smeta dəyərinin iriləşdirilmiş göstəriciləri və digərləri inzibati-amirlik iqtisadiyyatında istifadə olunur. Dissertasiyada qeyd edilir ki, belə normalar bazar iqtisadiyyatının inkişaf etmiş mühitində istifadə olunmur. Bundan başqa müasir şəraitdə, istehsal proseslərinin və texnologiyanın diversifikasiyasında əmələ gələn dəyişikliklərə uyğun, yeni yanaşmalara və metodlara əsasən, iriləşdirilmiş smeta normaları hazırlamaq olar, ancaq bu çox mürəkkəb prosesdir. Ona

görə də çox hallarda investisiya layihəsində müqavilə qiymətlərinin, xərclərin və digər göstəricilərin iqtisadi əsaslandırılması və hesablamaları tam düzgün olmur. Bu zaman iqtisadi və digər risklərin yaranması gözlənilir.

Xəzərin Azərbaycan sektorunda reallaşdırılan (neftin istehsalı və nəqliyyatı üzrə) layihələrin və iri xarici neft-qaz şirkətlərinin (Shell, BP və s.) reallaşdırdıqları böyük miqyaslı investisiya layihələrinin həyata keçirilməsi təcrübəsi də göstərmişdir ki, resurs metodları tətbiq edilməsinə uyğun, investisiyaların səmərəli həcmini və smeta dəyərini müəyyən etmək olar. Həmin metodlara əsasən podratçıların müsabiqə təkliflərini, müqavilə qiymətlərini, smetanı, resursların tədarükünü və s. formalaşdırmaq olar.

Layihənin dəyərənin indeks metodu ilə hesablanmasından tədriclə resurs metoduna keçid vasitəsilə investisiya layihəsinin dəyər göstəricilərini optimallaşdırmaq olar. Eyni zamanda da, investisiya prosesinin mərhələləri üzrə yüksək dəqiqliklə smeta hesablamalarının icra edilməsi, marketinq sisteminə görə resursların cari qiymətlərinin müəyyən edilməsi investisiya prosesi iştirakçılarının maraqlarına uyğun gələr, müasir informasiya texnologiyasının tətbiqi əsasında tikinti məhsulunun qiymətini müəyyən etmək olar.

Dissertasiyada qeyd olunur ki, investisiya həcmlərinin investisiya prosesi iştirakçıları tərəfindən formalaşdıran və tikinti məhsulunun istehsal qiymətlərini müəyyən edən mexanizmlər mahiyyətinə görə fərqlənir. İnvestisiya prosesində iştirak edən hər bir subyekt üzrə dəyər göstəriciləri tərkibinə görə, məsələn, tikintinin inşaat müəssisəsinin müəyyən etdiyi dəyərinin tərkibi və podratçıların müsabiqə təkliflərinin tərkibi, fərqlənə bilir. Bununla belə, müəllifin fikrincə, tikintinin sifarişçiləri və investorların istifadə etdikləri dəyərin qimətləndirilməsi mexanizmini podrat müəssisələri mənimsəməlidirlər.

Digər mühüm fərq, müxtəlif tipli investisiya-tikinti layihələri, məsələn, meydançada tikilən obyektlərin, elektrik ötürücü xətlərin, yolların, boru kəmərlərinin, obyektlərin dəyərinin qiymətləndirilməsi mexanizminə aiddir. Bununla yanaşı ölkənin regionları üçün təbii iqlim və ekoloji mühitin xüsusiyyətləri nəzərə alınmalıdır.

İnvestisiya layihəsinin dəyərinin uğurla idarə edilməsi üçün layihənin həyat tsiklinin hər bir mərhələsində tikinti məhsulunun dəyəri göstəriciləri müəyyən edilməlidir.

Real pul axınları, yəni pulların daxil olmaları və xərcləri ilə bağlı vaxtın müəyyən edilməsi, investisiya layihəsinin hazırlanması və

reallaşdırılması maliyyə əməliyyatları modeli çərçivəsində aparılır. Həmin model səmərəlilik göstəricilərini xarakterizə edir. Dissertasiyada pul



**Sxem 1. Resurs təminatının fəaliyyət prinsipi modeli çərçivəsində investisiya layihələrinin idarə edilməsi mexanizmi**

axınlarının formalaşdırılmasına yanaşmanın əsas prinsipləri, habelə pul axınları büdcəsinin bölmələri və onun strukturunun təkmilləşdirilməsi məsələləri açıqlanır.

Tikinti şirkətlərində investisiya resursları ilə təminat prosesi qarşılıqlı əlaqədə olan çoxsaylı funksiyaları əhatə edir. Bu prosesin səmərəli nəticələrinin təmin olunmasının şərtlərindən biri resurs təminatının fəaliyyət prinsipi modelinin hazırlanmasıdır. İşdə qeyd olunur ki, resurs təminatının modelləşdirilməsi vasitəsilə tikinti müəssisəsinin investisiya imkanlarından istifadəsinin yaxşılaşdırılmasının iki istiqamətini ayırmaq mümkün olur:

- resurs təminatının modelləşdirilməsinə əsasən, tikinti müəssisəsinin istehsal potensialının inkişafının sürətləndirilməsi;
- tikinti müəssisəsinin investisiya layihələrinin idarə edilməsinin optimallaşdırılması.

Resurs təminatının modelləşdirilməsi investisiya imkanlarının istifadəsini əhəmiyyətli surətdə yaxşılaşdırmaqla, ilk növbədə, məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətinin yüksəldilməsinə yol açır. Tikinti müəssisəsinin həyata keçirdiyi sosial, iqtisadi, təşkilati, texniki, ekoloji və digər tədbirlər yerinə yetirilən tikinti-quraşdırma işləri ilə əlaqələndirilməli və aparılan təhlildə nəzərə alınmalıdır. Resurs təminatının modelləşdirilməsini istifadə edərək müvafiq istiqamətlər üzrə investisiya imkanlarının səmərəli mənimsənilməsi təmin oluna bilər.

Model çərçivəsində təşkilat layihələndirilməsi texniki layihələndirmənin inkişafının əsaslandırılmasına görə formalaşır. Təşkilat layihələndirilməsinin idarə edilməsinin təkmilləşdirilməsini istehsal proseslərinin texnologiyasının diversifikasiyası və mürəkkəbləşməsi, habelə tikinti istehsalının həcminin artması tələb edir. İşdə təşkilat layihələndirilməsini bir neçə mərhələlərə bölməklə, investisiya imkanlarının idarə edilməsinin yaxşılaşdırıldığı qeyd edilir və ayrı-ayrı mərhələlərin məzmunu açıqlanır. Eyni zamanda, dissertasiyada resurs təminatının fəaliyyət prinsipi modeli çərçivəsində investisiyaların idarə edilməsi mexanizminin sxematik təsviri verilir (Sxem 1).

Resurs təminatının modelləşdirilməsi investisiya imkanlarından istifadənin optimallaşdırılması əsasında işçi layihələrinə nəzarətin gücləndirilməsinin həyata keçirilməsini, habelə, layihə sənədlərinin kompleks təhlilinin aparılmasını nəzərdə tutur. Bununla əlaqədar, resurs təminatının modelləşdirilməsi üzrə informasiyaların toplanması, müvafiq

tədbirlərin hazırlanması və reallaşdırılmasının təşkili və onların səmərəliliyinin qiymətləndirilməsi aparılmalıdır.

## ƏSAS NƏTİCƏLƏR

1. Dövlət müstəqilliyi şəraitində həyata keçirilən əsaslı islahatların nəticəsində Azərbaycan Respublikası iqtisadiyyatının tikinti sektorunda əhatəli və dərin institusional dəyişikliklər baş vermişdir. İnşaat sahəsində mülkiyyətin ayrı-ayrı növünə aid və müxtəlif təşkilati iqtisadi formalı müəssisələrin geniş şəbəkəsi formalaşmışdır. Bu prosesin gedişində, bir tərəfdən, dövlət əmlakının özəlləşdirilməsi üzrə proqramların tikinti sektorunda uğurla həyata keçirilməsi, digər tərəfdən, iqtisadiyyatın bu sahəsində sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması ilə əlaqədar, özəl sektora aid şirkətlər sayına və eləcə də, yerinə yetirilən işlərin həcminə görə aparıcı mövqelərə yiyələnmişlər.

2. Postislahat dövründə tikinti müəssisələrinin resurs təminatında əsaslı irəliləyişlər baş vermişdir. Bu istiqamətdə inşaat şirkətlərində əsas kapitala yönəldilən investisiyaların artımı önəmli rola malik olmuşdur. İnvestisiya qoyuluşlarının həcminin yüksək templərlə artması sayəsində tikinti sektorunda fəaliyyət göstərən şirkətlərdə əsas fondların yeniləşdirilməsi və müasir texnika növləri ilə təminat göstəricilərinin yaxşılaşdırılması təmin edilmişdir.

3. Şirkətlərin inkişafının investisiya təminatının gücləndirilməsi orta və uzunmüddətli dövr baxımından ölkə iqtisadiyyatının inşaat sektorunda əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə yüksəldilməsinə imkan vermişdir. Bununla yanaşı, fond veriminin səviyyəsində ümumi müsbət irəliləyiş meyli qərarlaşmışdır. Eyni zamanda, tikinti sahəsində həyata keçirilən geniş miqyaslı investisiya qoyuluşları iqtisadiyyatın bu sektorunda resurs potensialının formalaşması və təkmilləşdirilməsi ilə bağlı məsələlərin tam həlli ilə nəticələnməmişdir:

Birincisi, baş verən müsbət irəliləyişlər tikinti müəssisələrində əsas fondların strukturunun müasir tələblərə uyğun yaxşılaşdırılmasının təmin edilməsi baxımından optimal strategiyanın formalaşması və reallaşdırılması ilə müşaiət olunmamışdır. Əsas fondların tərkibində maşın və avadanlıqların xüsusi çəkisi kifayət qədər yüksək deyil və xidmət müddəti bitmiş xeyli texnika istifadə edilir.

İkincisi, ölkənin iqtisadi rayonları üzrə tikinti şirkətlərinin resurs potensialının formalaşdırılmasında, habelə həmin potensialdan istifadə səviyyəsində mövcud olan fərqlərin zəruri miqyaslarda ixtisar edilməsinə nail olunmamışdır.

Üçüncüsü, hələlik, tikinti sektorunda əsas kapitala investisiyaların səmərəlilik əmsalı və qaytarılma müddəti göstəricilərinin yaxşılaşdırılmasında davamlı meyl formalaşmamışdır. Bu sahədə müvafiq irəliləyişlərin təmin edilməsi, tikinti müəssisələrində əsas kapitala yönəldilən investisiya resurslarının artımında səngimələrin baş verdiyi şəraitdə, daha yüksək aktuallıq qazanır.

4. Müasir mərhələdə ölkə iqtisadiyyatının tikinti sektorunda fəaliyyət göstərən şirkətlərdə investisiya resurslarının formalaşması və səmərəli istifadəsi sahəsində aşağıdakı istiqamətlər prioritetlik qazanır:

- tikinti sahəsində, intensiv texnologiyaların və innovasiyaların geniş tətbiqinə imkan yaradılması tələbləri nəzərə alınmaqla, əsas fondların strukturunun təkmilləşdirilməsi;
- səmərəliliyin yüksəldilməsi amili kimi, investisiyaların mənimsənilməsi müddətlərinin optimallaşdırılması;
- tikinti sektorunda əsas kapitala investisiyaların səmərəliliyinin həm qısa və həm də orta və uzun müddətli dövrlərdə dayanıqlı yüksəliş dinamikasının təmin olunması;
- investisiya fəaliyyətinin idarə edilməsində səmərəli strategiyaların formalaşdırılması və ardıcıl reallaşdırılması.

5. Tikinti sahəsində əsas kapitala yönəldilən investisiyaların artım templərinin yüksək olmaması və bank-kredit sisteminin ümumi zəifliyi ilə bağlı, sahənin inkişafı üçün kənardan vəsait cəlb edilməsi imkanlarının əlverişli olmadığı şətaitdə inşaat şirkətlərinin fəaliyyətində investisiya resurslarının səmərəli istifadəsinin rolu yüksəlir. Hal-hazırda Azərbaycan Respublikasında tikinti müəssisələrinin fəaliyyətinin səmərəli nəticələrinin təmin olunması əhəmiyyətli dərəcədə investisiya prosesinin idarə edilməsinin ardıcıl təkmilləşdirilməsi ilə bağlıdır.

6. Tikinti müəssisələrinin investisiya resurslarının strukturunun təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi amillərinin önə çəkilməsi idarəetmədə resurs yanaşmasının tətbiqinin məqsədəuyğunluğunu şərtləndirir. Belə yanaşma, vəsait axınlarının tənzimlənməsi və tikinti müəssisələrinin investisiya resurslarının formalaşmasına vəhdətdə baxmaqla, kənar mənbələrdən maliyyə vəsaitlərinin cəlb edilməsində ciddi məhdudiyyətlərin olduğu hazırkı şəraitdə, mənfəətin zəruri kəmiyyətinə nail olunması əsasında sərmaye qoyuluşları imkanlarının davamlı yüksəldilməsi və dayanıqlı rəqabətqabiliyyətinin təmin edilməsi vəzifələrinin uğurla həllinə imkan açır.

7. Müasir mərhələdə Azərbaycan Respublikası iqtisadiyyatının tikinti sektorunda fəaliyyətin ümumi səmərəliliyinin yüksəldilməsi investisiya resurslarının idarə edilməsinin strateji yönümlərinin gücləndirilməsini tələb edir. Bu istiqamətdə inşaat şirkətlərində investisiya siyasətinin idarə edilməsi konsepsiyasının hazırlanması əhəmiyyətli rol oynaya bilər. Belə yanaşma şirkətlərin fəaliyyət mühitində baş verən irəliləyişlərə çevik adaptasiyasına və bununla da bazarda mövqelərinin möhkəmləndirilməsinə yol açır. Həmin konsepsiya tikinti müəssisələrində investisiya resurslarının formalaşması və istifadəsinin əsasında dayanmalıdır.

8. İnvestisiya siyasətinin idarə edilməsi konsepsiyasının resursların səmərəli istifadəsinə əhəmiyyətli təsir göstərən fəal alətə çevrilməsi məqsədilə, investisiya ideyasının investisiya fəaliyyətinin məqsəd və vəzifələrinə adekvat transformasiyası təmin edilməli, habelə konsepsiyanın mərhələli həyata keçirilməsi mexanizmi hazırlanmalı və reallaşdırılmalıdır.

9. Layihələrin dəyərinin idarə edilməsinin əlverişli strategiyasının hazırlanması və reallaşdırılması investisiya resurslarının səmərəliliyinin yüksəldilməsi amili kimi çıxış edə bilir. Müasir mərhələdə ölkəmizin tikinti °irkətlərində belə strategiyalar layihə tsiklinin mərhələləri üzrə qiymətləndirmə məqsədlərinin dəqiq müəyyən edilməsinə və müvafiq metodların əlverişli qaydada seçilməsinə əsaslanmalıdır.

10. Müasir şəraitdə ölkəmizin iri tikinti şirkətlərində sərmaye qoyuluşu imkanlarının dolğun istifadəsinə şərait yaradılması baxımından investisiya resursları ilə təminatın fəaliyyət prinsipi modellərinin hazırlanması və reallaşdırılması məqsədəuyğundur. Belə modellər çərçivəsində müxtəlif (təşkilati, texniki, iqtisadi, sosial, ekoloji) yönümlü amillərin əlaqələndirilməsinin səmərəli mexanizmlərinin reallaşdırılması mümkündür.

**Dissertasiya işinin əsas məzmunu dərc olunmuş aşağıdakı materiallarda əks etdirilmişdir:**

1. Məmmədov M.A., Əlizadə Ş.İ. Tikintinin idarə edilməsində dövlət proqramlarının rolu / AzMİU, "Su təsərrüfatı, mühəndis kommunikasiya sistemlərinin müasir problemləri və ekologiya" Beynəlxalq Elmi-Praktiki Konfrans, 14-15 aprel, Bakı, 2014, s. 471-474

2. Əlizadə Ş.İ. Tikinti müəssisələrində investisiya resurslarının formalaşması mənbələri və onların istifadəsinin səmərəliliyi // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu, Elmi əsərləri, Bakı, 2014, №2, s. 91-97

3. Əlizadə Ş.İ. Tikinti müəssisələrinin investisiya fəaliyyətinin tənzimlənməsinə resurs yanaşma // AMEA İqtisadiyyat institutu, Elmi əsərlər, Bakı, 2014, №4, s. 354-259

4. Əlizadə Ş.İ. Tikinti müəssisələrinin investisiya resurslarının idarə edilməsi / "Neft-kimya sənayesində qəza risklərinin qiymətləndirilməsi və ekoloji təhlükəsizlik problemləri", Beynəlxalq Elmi-Praktiki Konfrans, 04-05 dekabr, Bakı, 2014, s.123-125

5. Əlizadə Ş.İ. Mənzil-mülki obyektlərin investisiya layihəsinin texniki-iqtisadi əsaslandırılması / Azərbaycan Dövlət İqtisad Universiteti, Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı, 7-8 aprel, Bakı, 2015, s.219-220

6. Ализаде Ш.И. Инвестиционные ресурсы строительных предприятий Азербайджана и эффективность их использования // «Экономика и предпринимательство», Москва, 2015, №3 (ч.2), с.647-650

7. Əlizadə Ş.İ. Müasir mərhələdə tikinti sektoruna investisiya qoyuluşlarının dinamik təhlili / Qafqaz University, III International scientific conference of young researchers, 17-18 april, Baku, Azerbaijan, 2015, p. 584-585

8. Əlizadə Ş.İ. Tikinti müəssisələrinin investisiya resurslarının sistemli təhlili // Azərbaycan Universiteti "İpək yolu" Elmi jurnalı, Bakı, 2015, №1, s.11-16

9. Əlizadə Ş.İ., Azərbaycan respublikasında tikinti müəssisələrinə investisiya qoyuluşlarının dinamikası və səmərəliliyi // Azərbaycan Memarlıq və İnşaat Universiteti, "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı, №1, Bakı, 2016, s. 61-67

10. Əlizadə Ş.İ. Tikinti müəssisələrinin investisiya resurslarının formalaşmasının məqsəd və metodologiyası // Azərbaycan Memarlıq və İnşaat Universiteti, Elmi əsərlər, Bakı, 2016, s. 93-97

11. Əlizadə Ş.İ. Lizinq- investisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbəyi kimi / Azərbaycan Texniki Universiteti, "Azərbaycanın qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi" mövzusunda Respublika Elmi Konfransının meteriallları, Bakı, 2016, s. 204-205

12. Əlizadə Ş.İ. Tikinti müəssisələrində investisiya resurslarının formalaşmasının konseptual əsasları // Bakı Biznes Universiteti, "Audit" jurnalı, Bakı, 2016, №2, s.110-115

13. Əlizadə Ş.İ. Tikinti müəssisələrinin maliyyə mənbələri / Mingəçevir Dövlət Universiteti, "Qloballaşma və regional inteqrasiya" Respublika elmi konfransının materialları, Mingəçevir, 2016, s.220-221

14. Ализаде Ш.И Развитие инвестиционного потенциала строительных предприятий в совреиенных условиях // Економіка та держава №1, січень 2018, Київ, с. 107-110.

**Шахла Ибрагим кызы Ализаде**

## Направления эффективного использования инвестиционных ресурсов в строительных предприятиях

### Резюме

Диссертационная работа состоит из введения, трех глав, выводов, списка использованной литературы.

Во введении отражена актуальность темы исследования, уровень разработанности поставленной в диссертационной работе проблемы, обоснованы цель и задачи исследования, научные новизна и практическая значимость исследования.

В первой главе под названием "Теоретико-методологические основы формирования и использования инвестиционных ресурсов строительных предприятий" раскрывается особенности инвестиционной деятельности строительных компаний, исследуются методологические вопросы оценки эффективности формирования и использования инвестиционных ресурсов предприятий, показаны современные подходы к управлению инвестиционными проектами.

Во второй главе под названием "Динамика и эффективность инвестиционных ресурсов строительных предприятий на современном этапе" проанализированы результаты реформ и существующий инвестиционный потенциал строительных предприятий в ходе проводимых системных преобразований в нашей стране, исследуются динамика и факторы формирования структуры инвестиций в основной капитал, а также показатели эффективности инвестиций в строительный сектор.

В третьей главе под названием "Направления повышения эффективности использования ресурсов на основе усовершенствования управления инвестиционной деятельности строительных предприятий" проанализированы вопросы подготовки концепции управления инвестиционной политикой на строительных предприятиях, проанализированы направления разработки эффективных стратегий управления стоимостью инвестиционных проектов и раскрывается значение моделирования ресурсного обеспечения при эффективном использовании инвестиций.

В заключении даны выводы и предложения полученные в результате проведенного исследования.

**Shekhla Ibrahim d. Alizadeh**

**Directions of effective use of investment resources in construction enterprises**

**Summary**

The thesis consists of an introduction, three chapters, conclusions, a list of used literature.

The introduction reflects the relevance of the research topic, the level of development of the problem posed in the dissertation work, the purpose and objectives of the study, the scientific novelty and practical significance of the study are substantiated.

In the first chapter, "Theoretical and methodological foundations for the formation and use of investment resources of construction enterprises," specifics of the investment activity of construction companies are disclosed, methodological issues of assessing the effectiveness of the formation and use of investment resources of enterprises are explored, and modern approaches to the management of investment projects are shown.

In the second chapter, entitled "Dynamics and efficiency of investment resources of construction enterprises at the current stage", the results of reforms and the existing investment potential of construction enterprises in the course of ongoing systemic reforms in our country are analyzed, the dynamics and factors of formation of the structure of investments in fixed assets, as well as the indexes of investment efficiency in the constraction sector are examined.

In the third chapter, entitled "Directions of increasing the efficency of investment resurces using the improvement of management of investment activity of constraction enterprises",issues of preparetion of the concept of investment policy management at constraction enterprises were analyzed, directions for developing effective strategies for managing the cost of investment projects and reveals the importance of modeling resource support in the effective use of investments .

In conclusion, the results and proposals received as a result of the conducted research are given.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ШАХЛА ИБРАГИМ КЫЗЫ АЛИЗАДЕ**

# НАПРАВЛЕНИЯ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ИНВЕСТИЦИОННЫХ РЕСУРСОВ В СТРОИТЕЛЬНЫХ ПРЕДПРИЯТИЯХ

*Специальность: 5312.01– “Отраслевая экономика”*

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание учёной степени доктора философии по экономике**

**БАКУ-2018**